**Füzuli rayonunda “Məsumə” şirniyyat sexində keçirilən yoxlamaya dair məlumat**

**(14 yanvar 2026)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Füzuli rayonunun Kərimbəyli kəndində fəaliyyət göstərən, İmanova Fəxriyyə Süleyman qızına məxsus “Məsumə” şirniyyat emalı sexində yoxlama keçirib.

Baxış zamanı müəssisədə divar səthlərinin asan təmizlənən materialla üzlənmədiyi, emal prosesində istifadə edilən suyun filtrdən keçirilmədiyi, müvafiq təmizlik işlərinin aparılmadığı, havalandırma sisteminin quraşdırılmadığı və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.